ədalət.2017.-20 yanvar.-S.14.



# Yabançı "Mitçell"

hekayə

*Anatoli Matviyenko*
*Belarus*

**Mən axmaq bir təsadüf ucbatından düşdüyüm hospitaldan yenidən cəbhəyə qayıtdım. Xaricdə istehsal olunan "Boston" təyyarəsinin qanadının üstündə durduğum yerdəcə yıxılıb ayağımı sındırmışdım. Hospitaldakı tibb bacılarıyla məzələnə-məzələnə dilxoşluq etdiyim müddət ərzində isə bizim aviasiya polkumuz "Mitçell B-25" tipli ikimatorlu qırıcı təyyarələr almışdı.**

Bizim təyyarəçilər bu maşını öyrənib əxz edənədək artıq ikisini sıradan çıxarmışdılar. "Peşka"da bir il döyüş uçuşlarını yerinə yetirən pilotlarımızdan biri necə olmuşdusa təzə xarici maşının maksimal şığımaq qabiliyyətini yoxlamaq istəmişdi. Nəticədə təyyarə elə sürətlə enmişdi ki, idarəetməni itirmiş, təpəsi üstə yerə çırpılmışdı. Bütün heyət də məhv olmuşdu.

İkinci pilotumuz da vaxtilə "Pe-2"ni idarə etmişdi, təcrübəsi vardı. Sovet təyyarələrinin təkərlər bənd edilən hissəsində qabaq ayaqlar yox idi, yalnız arxa hissədə içi boş təkərlər vardı. Amerikalılar isə düşünmüşdülər ki, qabaq ayaqlar təyyarənin burnunun yerə dəyməsinin qarşısını alır. Sən demə, belə deyilmiş. Bizimkilər maşının müvazinətini yan dirəklər üstündə saxlamaq və ayaqlarını çıxartmaq əvəzinə, şappıltıyla yerə qonmaq istəyirdilər. Həmin baş leytenant da yerə enəndə əvvəlcə qabaq təkərlərlə yerə toxunmuş, sonra şassini sındırmış, arxası üstə çevirmişdi.

Xüsusi bölmə əməkdaşları tökülüşüb gəldilər. Birtəhər vəziyyətdən çıxdılar. Polk komandiri canını töhmətlə qurtardı. Bundan sonra ta döyüş uçuşları başlayanadək elə bir ciddi hadisə baş vermədi.

Biz xarici təyyarələrin güvənli olduğunu dərhal yəqin etdik. Maşınlar dəqiq uçuşlar edirdilər, hətta bir qanadla, ən azından isə bir matorla da uça bilirdilər.

Hava hücumundan müdafiə artilleriyası bizi yaxşıca qoruyurdu. Lakin "iyirmi beşlər", istər deşik-deşik, istərsə də tamam tüstü içində olsunlar, aerodroma qədər özlərini çatdıra bilirdilər. Bəziləri isə lap yenə qonandan sonra sıradan çıxırdı.

Təmir ustaları sarıdan korluq çəkirdik. Mexaniklər təyyarələri, necə deyərlər, "yamamağı" belə çatdıra bilmirdilər. Xırda-para əziklərə, mərmidən, ya da güllədən deşilmiş hissələrə belə heç kim fikir vermirdi. Beş-altı uçuşdan sonra bizim qırıcı təyyarələrimiz əməlli-başlı dəlik-dəlik olurdu. Buna görə də aerodromda çox vaxt pilotlarımız mexaniklərlə birlikdə təmir işlərini aparır, təlimata zidd olsa da, maşınlarla əlləşirdilər.

Min doqquz yüz qırx beşin qışından mənim ən çox yadımda qalan bir də buydu ki, elə hey yatmaq istəyirdim. Biz nəinki yerdə, hətta göydə belə uçuşlar zamanı istər-istəməz mürgüləyirdik. Bir dəfə mexaniklərə matoru işə salmaqda kömək edirdim, nədənsə oturub bir qədər dincimi almaq istədim. Qollarımı başımın arxasında çarpazladım, oturduğum yerdəcə yuxuya getdim. Bərk yuxuya getdim, mexaniklər matoru işə salanacan yatdım. Təyyarənin hava pəri məndən düz bir-iki metr aralıda fırlanırdı, başımın üstündə matorun gurultusu qopmuşdu, amma mənə təsir etməmişdi, yatmışdım.

Mənim yerim şturmanın oturduğu yer idi - təyyarənin burnunun ucunda. İçəri fənər işığıyla apaydın görünürdü. Elə bilirsiz aviasiyaya gələndə şturman olmaq arzusuyla gəlmişdim? Biz təyyarəçi olmaq istəyirdik, daha doğrusu, qırıcı təyyarəçi! Ənginliklər başdan-başa gözəllik məskənidi! Hələ yanındakı bütün heyəti demirəm, hamısı pilotlardı! Heyif ki, bu xoşbəxtlik hər kəsə nəsib olmur. Məktəbdən sonra yaşımın üstünə bir yaş da əlavə yazdırdım, texnukuma girdim. Burda atıcı-rabitəçilər hazırlayırdılar. Cəbhədə isə artıq şturman ixtisasını öyrənmişdim. Lakin şturvala əyləşmək mənə qismət olmadı.

Deməli, həmin vaxt, matoru dəyişəndən sonra, mexaniklər məruzə elədilər ki, təmir işi uzanır. Elə bu zaman eskadrilya komandiri mənim yatdığımı gördü. Dedi, ey, starşina, sən deyəsən atıcılığı bitirmisən, peşə məktəbində oxumusan! Hazırlaş, gündüz uçacaqsan, o biri ekipajda adam çatışmır.

Ürəyimə pis fikirlər girdi; axı adətən quyruqda oturan atıcının həyatı daha çox təhlükəyə məruz qalır, ən çox quyruq əzilir, o da məhv olur! Təsəvvür edin ki, "Fokke-Vulf" Hava Hücumundan müdafiə silahları bir qayda olaraq quyruğu tutur. Pilotları mator müdafiə edir, xüsusən alman pilotunu. Həm də onun bir sürü qırıcıları və pulemyotçuları var. Amma bizim qırıcı təyyarələrinin atıcısının ikicə pulemyotu və içərisi apaydın görünən şüşəli kabineti var, halbuki bu kabinet zirehli olmalıydı. Buna görə də təyyarə tapşırıqdan qayıdanda çöldən salamat görünürdü, quyruğunda isə meyit gətirirdi. Bizim təyyarəyə atəş açılanda atıcı məcbur olub lyuka tərəf bütün gövdə boyu sürünməli olurdu, bortu da sonuncu tərk edirdi. Əlbəttə, əgər buna macal tapırdısa...

Mən Fedorovkaya, Şimali Qazaxıstana, doğmalarıma məktub yolladım. Yazdım ki, sevirəm sizi, unutmuram, qucaqlayıb bağrıma basıram, məni yaxşı xatırlayın.

Hiss elədim ki, təyyarəmizi vurdular, düz qarnından. Gövdəsini tüstü bürüdü. Maşının hər iki bortu tüstü içindəydi. Tullanım? Lakin hara tullanım? Aşağıda almanlar var axı!

Komandir qışqırdı ki, təyyarə alov içindədi. Maşın burnu aşağı yerə sarı şığımağa başladı. Tüstü azaldı. Sonra pilot təyyarəni Şərqə tərəf döndərdi. Cəbhə xəttini keçmək üçün hardasa yüz-iki yüz metr uçmalı olduq. Meşənin üstüylə uçurduq. Artıq yüksəkliyi də itirmişdik. Birdən təyyarə yüngülcə bir qanadı üstə əyildi və yerə düşdü. Dəhşətli zərbəydi.

Ayılanda gördüm ki, yerimdəyəm, arxası üstə uzanmışam. Bütün bədənim ağrıyır. Gözümün qabağında pulemyotlar və şüşə qırıntıları var. Düz iki saat ordan çıxa bilmədim. Piyadalarımız özlərini yetirdilər, məni kabinetdən çıxartdılar.

Baxıb gördüm ki, bizim maşın bataqlığa girib, buzu da sındırıb. Yalnız quyruq hissəsi gövdənin qurğu və dirəkləri ilə birlikdə quru bir yerdə qalmışdı. Elə bil abidəydi! Bütün heyət həlak olmuşdu. Bircə mən sağ qalmışdım. Quyruqda oturan ölümə məhkum atıcı salamat çıxmışdı!

Müharibədə belə şeylər tez-tez olur: ən təhlükəli yerlərdə olan görürsən sağ qalır, o biriləri isə həlak olur. Mən nəhayət, öz ekipajıma qayıtdım və düz Qələbə gününədək döyüş uçuşlarında iştirak etdim. Bir yerim belə qanamadı. Deməli, qismətim beləymiş!

**Yevgeni Matviyenko,**
**Uzaq məsafəli aviasiya starşinası, Polşa, 1945.**

İndi müharibə yoxdu. Səni yuxudan növbətçi əsgərin çığırtısı durquzmur. İndi səni yuxudan zəngli saat oyadır. Eşidirəm ki, mətbəxdən səs-küy gəlir. Atam bilir ki, bu gün mən tez durmalıyam. O isə məndən əvvəl durub, mənim üçün səhər yeməyini qızdırır.

Səhər günəşinin şüaları evə dolur. Atam əlində dəsmal məni qarşılayır. O, necə də enerjili, əzəmətli və cavan görünür! "Sabahın xeyir" demək əvəzinə yaxınlaşıb onu qucaqlayıram. O da bir əlində dəsmal, o biri əliylə mənim belimdən yapışır. Bizim aramızda otuz altı il yaş fərqi var. Beləcə hər xoşbəxt səhərin qədrini bilmək lazımdır. Görəsən belə səhərlər daha nə qədər olacaq? Heç nə qədər!

Atam çoxdan dünyasını dəyişib. Onu qucaqlamağın ani sevinc hissini indi yalnız yuxularımda yaşayıram.

Atam müharibə görmüşdü, yerə çırpılmış təyyarədə ölməmişdi, sağ qalmışdı. Atam çox böyük işlər görmüşdü! Məni dünyaya gətirməklə də balaca bir iş görmüşdü. Bu qısa hekayə isə onun xatirələri əsasında yazılıb.

Mənim rəfimin üstündə "Mitçell"in ləkəli bir modeli var.

Qəbrin nurla dolsun, ata!

**Tərcümə etdi:**
**K.Nəzirli**